# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfəri

## İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur



Kiyevdə Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Qarşılıqlı səfərlərin, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırıldı.

Söhbət zamanı Azərbaycan-Ukrayna əməkdaşlığının genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, ölkələrimiz arasında münasibətlərin daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.

## Azərbaycan və Ukrayna prezidentlərinin təltif edilməsi mərasimi



Noyabrın 18-də Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının dördüncü iclasından sonra dövlət başçılarının təltif edilməsi mərasimi olmuşdur.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynanın "Azadlıq ordeni" ilə təltif olunması barədə Prezident Viktor Yanukoviçin Sərəncamı oxundu.

Ukrayna Prezidenti Viktor Yanukoviç "Azadlıq ordeni"ni Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Sonra Ukrayna Prezidenti Viktor Yanukoviçin Azərbaycan Respublikasının "Heydər Əliyev ordeni" ilə təltif olunması barədə Prezident İlham Əliyevin Sərəncamı oxundu.

Prezident İlham Əliyev "Heydər Əliyev ordeni"ni Prezident Viktor Yanukoviçə təqdim etdi.

# Azərbaycan-Ukrayna sənədlərinin imzalanma mərasimi olmuşdur



Azərbaycan Respublikası Prezidentinin Ukraynaya səfəri çərçivəsində Prezident İlham Əliyevin və Prezident Viktor Yanukoviçin təltif edilməsi mərasimindən sonra Azərbaycan-Ukrayna sənədlərinin imzalanma mərasimi olmuşdur.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yanukoviç "Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının dördüncü iclasının Protokolu"nu imzalamışlar. Daha sonra Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Heydər Əsədov və Ukraynanın aqrar siyasəti və ərzaq naziri Nikolay Prisyajnyuk "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş"ini, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın xarici işlər naziri Leonid Kojara "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi arasında 2014-2015-ci illər üzrə Məsləhətləşmələr Planı"nı, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Ukraynanın Rovno Vilayət Dövlət Administrasiyasının rəhbəri Vasili Bertaş "Azərbaycan Respublikasının Qəbələ Rayon İcra Hakimiyyəti və Ukraynanın Rovno Vilayət Dövlət Administrasiyası arasında regionlararası əməkdaşlıq haqqında Saziş"ini və Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli və Ukrayna Prezidentinin müşaviri - Ukrayna Prezidenti Administrasiyasının Humanitar İnkişaf Məsələləri Baş İdarəsinin rəhbəri Yuri Boqutski "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi və Ukrayna Milli İncəsənət Akademiyasının Kulturologiya İnstitutu arasında Əməkdaşlıq Müqaviləsi"ni imzalamışlar.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yanukoviç mətbuata bəyanatla çıxış etmişlər

Qeyd etmək lazımdır ki, 2013-cü ilin sentyabr ayının 10-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ukrayna Respublikasının Rovno vilayətinin numayəndə heyətinin üzvləri əməkdaşlıq məqsədilə Qəbələ rayonunda səfərdə olmuşlar. Rovno vilayəti administrasiyasının sədri Vasili Bertaşın başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə Ukrayna xalq deputatı Blaqodır Yuriy, Rovno şəhərinin meri Vladimir Xomko, vilayətə daxil olan rayonların administrasiya rəhbərləri, həmçinin özəl sektorun 31 təmsilçisi də qatılmışdır. Sentyabrın 11-də isə Qəbələ Mədəniyyət Mərkəzində Rovno vilayətini və Qəbələ rayonunu təmsil edən 70-ə yaxın iş adamının birgə iştirakı ilə görüş keçirilmişdir. Səfər zamanı Ukraynanın Rovno Vilayəti Dövlət Administrasiyası ilə Qəbələ rayon İcra Hakimiyyəti arasında "Regionlararası əməkdaşlıq haqqında Saziş"i imzalanmışdır.

* * *

Noyabrın 18-də Ukraynaya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kiyevdəki Heydər Əliyev parkında görülən işlərlə tanış olmuşdur.



Sonda xatirə şəkli çəkdirilmişdir.

**Zahir KƏRİMOV,**
**rayon icra hakimiyyətinin aparıcı məsləhətçisi.**